**31 Dekabr hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunur. Bu gün yer üzərində yaşayan bütün azərbaycanlıları birləşdirən və milli həmrəylik ruhunu təcəssüm etdirən mühüm tarixdir. Azərbaycan xalqının mədəni, tarixi və milli birliyinin simvolu olan bu bayram təkcə Azərbaycan Respublikasında deyil, həm də dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlı tərəfindən böyük coşqu ilə qeyd edilir.**

# Həmrəyliyimiz qürurumuzdur

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün yaranma tarixi 1991-ci ilin sonlarına dayanır. Belə ki, XIX əsrdə Azərbaycan Gülüstan və Türkmənçay müqavilələri ilə Qacarlar və Rusiya imperiyası arasında bölüşdürüldü. Bundan sonra xalqımız yüz illər boyu bir-birindən ayrı qalmağa məcbur oldu. Nəhayət, 1989-cu il dekabrın sonlarında Sovet İttifaqının sərt rejiminə qarşı baş qaldıran Naxçıvan sakinləri hər iki dövlətin ciddi təzyiqlərinə baxmayaraq, İranla sərhədin rəmzi olan dəmir tikanlı məftilləri sökərək qohumlarına və soydaşlarına qovuşdular. Bu hadisələr baş verən zaman İstanbulda Türkdilli Xalqların Konfransı keçirilirdi. Tədbir iştirakçıları hadisənin baş verdiyi günün, yəni dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunmasına qərar verdilər. Bu tarixin rəsmiləşdirilməsi isə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun təşəbbüsü ilə 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Milli Həmrəylik və Birlik Gününün təsis olunması barədə qərar qəbul etdi. Bundan cəmi doqquz gün sonra Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası hər il dekabr ayının 31-nin Azərbaycanlıların Həmrəyliyi Günü elan olunması barədə qərar qəbul etdi. Bu tarix Azərbaycan xalqının həmrəyliyini, dünyadakı azərbaycanlıların milli kimliyini qorumaq və gücləndirmək məqsədini özündə əks etdirir.

2001-ci il 9-10 noyabr tarixlərində paytaxtda Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Konfrans dünya azərbaycanlılarının birləşdirilməsi, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması istiqamətində mühüm hadisəyə çevrildi. Ulu öndər Heydər Əliyevin dünya azərbaycanlılarının milli birliyinin və həmrəyliyinin təmin edilməsi haqqında söylədiyi dərin məzmunlu sözlər hər bir azərbaycanlının yaddaşına ömürlük həkk olundu. Müdrik rəhbər milli qürur rəmzinə çevrilən bu kəlamları da həmin tədbirdə səsləndirdi: "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!".

Təməli ulu öndər tərəfindən qoyulan milli həmrəylik ideyaları bu gün də dövlətimiz üçün öz aktuallığını qoruyub saxlayır. Prezident İlham Əliyev hər il əlamətdar günlə bağlı xalqımıza müraciətində bildirir ki, bu bayramın əsas mahiyyəti dünyada dağınıq halda yaşayan azərbaycanlıları bir araya gətirmək, onları milli dəyərləri qorumağa və gələcək nəsillərə ötürməyə təşviq etməkdir. Həmrəylik Günü azərbaycanlılar arasında milli birliyin, mənəvi dəyərlərin və mədəniyyətin təbliğində vacib rol oynayır. Bu səbəbdən Azərbaycan Respublikası bu günü milli bayram kimi qeyd edir və bununla da dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlılara həmrəylik mesajı göndərir. Bu bayram Azərbaycan diaspor təşkilatları üçün də böyük əhəmiyyət daşıyır. Müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları 31 dekabrı xüsusi tədbirlər və mərasimlərlə qeyd edirlər. Əsasən, konsertlər, mədəniyyət sərgiləri, milli musiqi və rəqs proqramları, eləcə də müzakirə panelləri təşkil edilir. Xaricdə yaşayan azərbaycanlılar bu günü soydaşları ilə bir araya gələrək milli birliyi qeyd edir, öz mədəniyyət və adət-ənənələrini yaşadırlar. Yəni, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü yalnız milli birlik bayramı deyil, həm də beynəlxalq səviyyədə Azərbaycanın tanıdılmasına xidmət edir. Çünki diasporumuz bu vasitə ilə dünyanın müxtəlif ölkələrində mədəniyyətimizi, tariximizi və milli irsimizi təbliğ edir. Bu, Azərbaycanın beynəlxalq arenada daha da güclənməsinə və azərbaycanlıların qlobal miqyasda təsir gücünün artmasına kömək edir.

Bunların fonunda deyə bilərik ki, 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü hər bir azərbaycanlı üçün qürur mənbəyidir. Bu gün bizə xalqımızın birliyini, mədəniyyətimizi və milli dəyərlərimizi qorumağın nə qədər vacib olduğunu xatırladır. Harada yaşamalarından asılı olmayaraq azərbaycanlılar bu bayramı böyük sevgi və ehtiramla qeyd edir, milli həmrəylik ruhunu yaşadır və gələcək nəsillərə ötürürlər.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**

Respublika.- 2024.- 30 dekabr (№ 290).- S.16.